# Prezident İlham Əliyev qalib Lider, həm də sülhün müəllifidir

**Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamə Cənubi Qafqazda 30 ilə yaxın davam edən münaqişəni tarixin arxivinə gömən və təkrarlanmamasına zəmanət verən çox mühüm diplomatik əhəmiyyətə malikdir. Bu sənəd Azərbaycanın Ermənistan üzərində hərbi qələbəsinin beynəlxlalq müstəvidə siyasi təsdiqi idi. İrəvan 10 noyabr kapitulyasiya aktı ilə üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını Vaşinqtonda nümayiş etdirdi. Birgə Bəyannamə Azərbaycanı özünün strateji hədəflərinə daha da yaxınlaşdırdı və Zəngəzur dəhlizini icra vəziyyətində olan layihə halına gətirdi.**

ABŞ Prezidenti Donald Trampın dəvəti əsasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vaşinqtona səfəri yalnız ölkəmiz üçün deyil, bütövlükdə region üçün tarixi əhəmiyyət daşıyır. Səfər zamanı Azərbaycan və Ermənustan sülh gündəliyi ilə yanaşı, ölkəmiz ilə ABŞ arasında strateji tərəfdaşlığın gücləndirilməsi məsələləri xüsusi müzakirə mövzusu oldu. Donald Trampın yenidən hakimiyyətə gəlməsi ABŞ və Azərbaycan arasındakı münasibətlərdə yeni səhifə açıb. Hələ 2024-cü ilin 5 noyabrında ABŞ-da keçirilən prezident seçkilərindən 3 ay öncə Şuşada keçirilən Qlobal Media Forumunda ABŞ-dakı seçkilərlə bağlı jurnalistin sualını cavablandırarkən Prezident İlham Əliyev böyük uzaqgörənlik və cəsarət nümayiş etdirərək o zaman prezidentliyə namizəd Donald Tramp haqqında müsbət fikirlər söyləyərək dövlət başçısı kimi onun namizədliyini dəstəkləmişdir. D.Tramp ABŞ Prezidenti seçildikdən sonra iki ölkə arasında münasibətlərin inkişafında yeni dövr yarandı. Azərbaycan-ABŞ münasibətləri enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar və süni intelekt və rəqəmsal infrasturukturun da daxil olduğu iqtisadi sərmayə istiqamətində də inkişaf etdiriləcək.



Əməkdaşlıq strateji tərəfdaşlığa doğru irəliləyir. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" buna əyani sübutdur. Strateji İşçi Qrupu regional bağlantılar infrasturukturunun və enerji sahəsində sərmayələrin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilməsi, həmçinin süni intelektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq. Enerji sahəsində əməkdaşlıq ABŞ müttəfiqlərinin Azərbaycan qazı hesabına öz enerji təhlükəsizliyini daha da gücləndirməsinə imkan yaradacaq. 14 ölkəyə mavi qaz nəql edən Azərbaycan ABŞ-ın Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyinin güclənməsinə xüsusi töhvə verir. Prezident İlham Əliyevlə Prezident Tramp arasında qurulmuş uğurlu əməkdaşlığın nəticəsi kimi ABŞ lideri tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənəd imzalandı. Torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi 1992-ci ildə Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə kimi göstərərək, ölkəmizə ABŞ-dan dövlət yardımının göstərilməsini qadağan edən qanunu qəbul etmişdir. Bayden-Blinken administrasiyası Əfqanıstan əməliyyatları başa çatan kimi nankorcasına 907 saylı düzəlişi yenidən gündəmə gətirdi və bundan Azərbaycana qarşı təziq vasitəsi kimi istifadə etməyə çalışdı. Prezident İlham Əliyevin Vaşinqton səfəri, imzalanan birgə sənədlər Azərbaycanofobiya xəstəliyinə tutulmuş Fransa Prezidenti Makronun, keçmiş qondarma qurumu "tanıyan" fransız deputatların, Avropa Parlamentinin, Qərb mediasının, Amnesty International, Human Rights Watch, erməni lobbisinin, ANCA-nın iflasıdır. Bu səfər Azərbaycanla təhdid dili ilə danışan, qarşımıza "qırmızı xətlər" qoyan qüvvələrə samballı cavabdır.

Birgə Bəyannamədə Azərbaycan üçün ən vacib məqamlardan biri ölkəmizin əsas hissəsini Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bənddir. Hələ 2021-ci ilin aprel ayında Azərbaycan Prezidenti cənab İlham Əliyev yerli telekanallara müsahibəsində bildirmişdi ki, biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Cənab Prezident ötən gün daha bir vədini yerima-Ata Bəyannaməsinə istinad edilməsi sərhəd toxunulmazlığı prinsipini beynəlxalq hüquqla təsdiqləyir, "güc tətbiq etməmək" bəndi isə Ermənistanın gələcək revanşizm cəhdlərinə qarşı hüquqi baza yaradır, tərəflərin üzərinə öhdəlik qoyur. Bu layihənin önəmi həm də ondadır ki, ilk dəfə olaraq Azərbaycan və Ermənistan Rusiyanın hər hansı formada iştirakı olmadan ABŞ-n zəmanəti ilə öz üzərlərinə sülh öhdəliyi götürdü. Bir-birinin suverenliyini və ərazi bütövlüyünü rəsmi imzalanmış sənədlə tanıdılar. Tərəflər bir-birinin ərazi toxunulmazlığına əsaslanaraq, qarşılıqlı olaraq güc işlətməkdən imtina etməklə regional əməkdaşlığın əsası kimi dövlətlərarası münasibətlərin bərpasını və kommunikasiyaların açılmasını nəzərdə tutan yeni regional sabitlik və əməkdaşlıq mexanizmi yaratmaq niyyətlərini ifadə etdilər.

Sənəddə digər diqqətçəkən məqam ATƏT-in Minsk Qrupunun və onun strukturlarının ləğvi ilə bağlı hər iki ölkənin razılığıdır. Bu, Azərbaycanın Ermənistanla sülh müqaviləsinin imzalamaq üçün irəli sürdüyü 2 əsas şərtindən biridir. Minsk Qrupunun ləğvi ilə əlaqədar ATƏT-ə birgə müraciətin edilməsi Qarabağ məsələsini vasitəçilik predmeti olmaqdan çıxarır. Bakının ikinci şərti - Ermənistan Konstitusiyasına dəyişikliklərin edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması hələlik açıq qalır. Birgə Bəyannamədə Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur. 2026-cı ildə Ermənistanda konstitusiya dəyişiklikləri ilə əlaqədar referendum keçirildikdən sonra sülh sazişinin imzalanması təmin olunacaq.

Vaşinton görüşü göstərdi ki, Ermənistanla yanaşı Rusiya və İranın da əngəllərinə baxmayaraq Azərbaycanın siyasi rəhbərliyi qarşısına qoyduğu hədəflərə çatmağın yollarını bilir. Dünya bir daha cənab Prezidentin peşəkar diplomatik məharətinin, siyasi təcrübəsinin, cəsarətinin şahidi oldu. Bu sənəd 2020-ci ildə əldə etdiyimizi qələbənin ABŞ Prezidenti Donald Trampın da iştirakı ilə təntənəli təsdiqidir. Trampın Azərbaycan-Ermənistan normallaşma prosesində yaxından iştirakı C.Karterin 1978-ci il Kemp-Deviddə Misir ilə İsrail arasında imzalanmış müqavilə ilə müqayisə oluna bilər. Biz müharibəni qazanmışdıq, bu dəfə sülhü qazandıq. Vaşinqton Bəyannaməsi həm də Ermənistan üçün tarixi fürsətdir. İşğalçılıq siyasəti üzündən blokada vəziyyətində qalan Ermənistan böhrandan çıxmaq, qonşuları ilə normal münasibət qurmaq üçün imkanlar əldə edib.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 10 avqust(№166).- S.9.